

# Poliqrafiyanın fədakarı

*(Əvvəli ötən saylarımızda)*

Tədqiqatçı-jurnalist, publisist Flora Xəlilzadə "Şərəfli ömrün mənası" adlı yazısının əsas obrazı kimi Şəddat Cəfərovu seçərkən, yəqin ki, düşünüb; mən kimi tədqiq edirəm, kimin əməli fəaliyyətini təqdir edirəm. Yazacığım obrazın həyatı ictimai mühitdə mənəvi təkana çevriləcəkmi? Onu insanlar necə qəbul edir?

Şübhəsiz, fantaziyamızın köməyi ilə düşündüyümüz bu suallar yetərincə əsaslıdır. Çünki hər bir müəllif ədəbi tədqiqata cəlb etdiyi obazın taleyinə mənəvi məsuliyyət daşıyır. İş burasındadır ki, Şəddat Cəfərovun həyat yolu Flora Xəlilzadəni düşündürən bütün suallara həm aydın, həm də təqdiredici cavablar verir. Görünür, təcrübəli publisistin yazısının uğurunu təmin edən də elə budur. Flora Xəlilzadə şəddat Cəfərov obrazını həm tarixi aspektdə, həm psixoloji mühitdə, həm də birbaşa istehsalat mühitində təqdim edir. Bizə aydın olur ki, müəllif işləyəcəyi mövzuda işıqlandıracağı ideyanı dəqiq obrazda görə bilir.

Şəddat Cəfərov ötən əsrin yadigarıdır. Əsil vətən təəssübkeşi, milli birlik carçısıdır. Yadigar demişkən "yadigar" sözünü işlətdim. Flora Xəlilzadə Şəddat Cəfərov kimi adamları xalqımızın tarixi yadigarı kimi xarakterizə etməkdə düzgün mövqe tutur. Təsadüfi deyil ki, Flora Xəlilzadə ictimai televiziyada "Yadigarlar" adlı çox dəyərli bir verilişin də həmmüəllifidir. Onun tele-publisistika sahəsində yetirmələrindən biri də elə "Yadigarlar" verilişinin həmmüəllifi oğlu Bəhruz Niftəliyevdir. Düşünürəm ki, ötən əsrin yadigarı kimi Şəddat Cəfərov da bir gün həmin verilişin qonağı ola bilər.

Şəddat Cəfərov haqqında ən görkəmli ictimai xadimlərinin, siyasət adamlarının, böyük söz sahiblərinin dəyərli fikirləri var. Flora Xəlilzadə belə simalardan birinin sözünü yada salır: "Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə yaxından tanıdığı Şəddat Cəfərov haqqında söyləyir: "Şəddat sözün həqiqi mənasında səmimi, gözəl ailə başçısı, bacarıqlı təşkilatçı, qayğıkeş insandır. Azərbaycanda poliqrafiyanın inkişafında böyük rolu olub. Belə mütəxəssislərə həmişə ehtiyac var"... Göründüyü kimi akademik Ziyad Səmədzadə də Şəddat Cəfərovu yüksək keyfiyyətlərə malik insan kimi xarakterizə edir. Burada bizim diqqətimizi onun gözəl ailə başçısı kimi diqqətə çəkilməsidir. Həqiqətən, Şəddat Cəfərov böyük ailə sahibidir. O, təkcə öz ailəsinin başçısı deyil, vaxtilə rəhmətlik babası Hüseynin, atası Muğdatın bütün törəmələrini heç vaxt yaddan çıxarmır, onların çətinliyində seyrçi mövqe tutmur, köməyə ehtiyacı olan hər kəsə imkanlarını əsirgəmir. Məhz ubu keyfiyyətlər onu inedi bütöv bir tayfaya çevrilmiş ailə dünyasında da hörmət və nüfuz sahibi kimi tanınır. Qayğıkeşliyi haqqında isə onu da demək lazımdır ki, yaradıcı insanların kitablarının nəşrini, əsərlərinin çapını yoluna qoyur, söz adamlarının sevinməsi üçün heç bir səyini əsirgəmir.

Şəddat Cəfərovun söz adamlarına bağlılığı, sənətkarlar arasında yüksək hörmət və ehtiram sahibi olması təsadüfi deyil. O, keçmiş SSRİ məkanında tanınan jurnalistdir. Kitabları postsovet müxtəlif şəhərlərində dərc olunur. Yazıçı fəaliyyətini isə nair və poliqrafçı kimi fəaliyyətinə müvazi olaraq davam etdirir. Həm jurnalist, həm də yazıçı kimi ədəbi sözdən heç vaxt kənarda qalmayıb. Adicə söhbətlərində belə yumorlu danışığı ilə gərginləşməyə doğru gedən mühitdə vəziyyəti asanlıqla dəyişdirə bilir. Müsahiblərini stressdən çıxarır. Bir növ onlara yüksək ovqat bəxş edir. Bununla da əsəbi mühit öz yerini mehribanlığa, insani dəyərlərə üstünlükverməyə dəyişir. Şəddat Cəfərovun həyat yolu, beləcə, bir insanın zəngin ömür səhifələri kimi yadda qalır. Tədqiqatçı-publisist Flora Xəlilzadə onun yaradıcı təbiətinin ədəbi-bədii məziyyətlərini də unutmur: "Diqqətli oxucular onu həm də yumoristik hekayələr müəllifi kimi tanıyırlar. 100-dən artıq hekayənin və elmi-publisistik məqalələrin müəllifi olan Şəddat Cəfərovun «Gənclik» nəşriyyatı tərəfindən kitabları işıq üzü görüb, hadisələr... Düşüncələr» və «Yumoristiçeskie rasskazı» kitabları oxucular tərəfindən maraqla qarşılanıb. Onun hekayələri barəsində ötən əsrin sonlarında ədəbi



tənqid tərəfindən maraqlı fikirlər söylənilib. Hətta bəzi yazıları Cek Londonun, Turgenevin, Qorkinin, Mirzə Cəlilin hekayələri ilə müqayisə edilib. Şəddat Cəfərovun hekayələrini oxuduqca gəldiyimiz qənaət bu oldu ki, o, əslində Azərbaycan ədəbiyyatında llakonik hekayələr ustadı kimi məşhurlaşan yazıçı Mir Cəlaldan təsirlənərək kiçik hekayələr yazmaqda daha çox uğur qazanır. "Balamirzə yazandı", "Mədəni adam". "Qovaq ağacı", "Yaxşısı budur dözək", "Həbib dayı və müdir bəy", "Arayış", "İmtahan" kimi hekayələrini oxuduqca buradakı gülməli vəziyyət olduqca düşündürücü və təsiredicidir". Flora Xəlilzadə ötəri də olsa, bu qeydlərdə Şəddat Cəfərovun yazıçı taleyinə də işıq salır. Oxucular arasında maraqla qarşılanan əsərlərinin adlarını çəkir. Əsasən yumoristik əhvalda yazılmış hekayələrin yaratdığı dərin təəssüratı yüksək dəyərləndirir və qeyd edir ki, bu hekayələr kifayət qədər ədəbi tənqiddə diqqəti cəlb edir. Müəllif bu qeydlərini "Yanvar, 2010" tarixi ilə işarələyir. Aradan 11 il keçib. Şəddat Cəfərov haqqında yenə də Flora Xəlilzadənin qeyd etdiyi kimi ilhamla yazılır. Onun parlaq və orijinal şəxsiyyəti, yaradıcılıq yolu, elmi və ədəbi fəaliyyəti öyrənilməkdə davam edir. Xüsusilə, kitab çapının elmi-estetik mahiyyəti nəzəri cəhətdən araşdırılır. Axı bu sahədə Şəddat Cəfərovun elmi monoqrafiyaları kifayət qədər dəyərli tədqiqatlardır.

Yeri gəlmişkən, qeyd edim ki, mən də Şəddat Cəfərovun ədəbi, elmi naşirlik fəaliyyətini ardıcıl izləyən və tədqiq edən müəlliflərdənəm. Bu barədə yazıçı fatma Həsənqızının "Acılı-şirinli günlər" sənədli romanında da kifayət qədər dolğun məlumat verilir: "Şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfli Şəddat Cəfərovun hekayələrini "Özünü tanımağın yolu, yaxud, gülüşün estetik mahiyyəti" başlıqlı məqaləsi ilə təhlil etmişdir: "Ağlarlıq və gülərlik... ağlamaq və gülmək. Sənəti araya-ərsəyə gətirən iki qoşa qanaddır. Göz yaşları sənət üçün nə qədər əhəmiyyət kəsb edirsə, gülüşün də dəyəri elə o qədərdir. Başqa sözlə, ürək yanmasa, göz yaşı, könül sevəsə, gülüş olmaz. Yumorist yazıçı Şəddat Cəfərovun həyat münasibəti istər ciddi hekayələrində, istərsə də yumorlu nəsrində birmənalıdır; o, həyatı saf və sağlam görmək istəyir. Ona görə də bütün yaradıcılığı boyu müraciət elədiyi mövzuların qələmə alınmasında daxili-mənəvi mühitdən gələn hisslərini və həyəcanlarını əsirgəmir...". "Kredo" qəzetinin bir neçə sayında dərc olunan Əli Rza Xələflinin araşdırma-məqaləsi həcmcə böyük olduğundan ayrıca kitabın mövzusudur. Kitab qarşıdakı illərdə işıq üzü görəcəkdir". Bircə onu qeyd edirəm ki, ədəbi tədqiqatlarımın Şəddat Cəfərova həsr olunmuş yekunu "Böyük portretin işığı"(I cild, həmmüəllif Ceyhun Zallı, 2020) kitabında işıqlığa çıxıb. Bu qeydləri ona görə yazdım ki, çoxlu sayda ədəbi-elmi mənbələrə istinadən işləyərkən Flora Xəlilzadənin "Şərəfli ömrün mənası" publisist yazısı da diqqətimdə oldu. Ayrı-ayrı məqamlarda bu yazıya da istinad etmişəm.

Mənə elə gəlir ki, hər bir insan ömrü bəşər tarixinin müəyyən olunan bir səhifəsidir. Doğrudur, bir insan ömrü ümumi tarixlə müqayisədə çox qısa yer tutur. Ancaq bu o demək deyil ki, milyon-milyon insanların həyata gəlib, yaşayıb ömrünü başa vurması sürətlə unudulur. Xeyir, belə deyil. Hər bir yeni gələn insan özündən əvvəlki nəslin müəyyən işarə ilə daşıyıcısıdır. O başqa məsələdir ki, ayrı-ayrı mərhələlərdə böyük insanlar, şəxsiyyətlər cəmiyyətin həyatına xüsusi təsir göstərə bilir. İnsanların taleyinin hifz olunmasında onlar zəka məhsulu ilə yadda qalan örnək həyatları ilə xüsusi rol oynayırlar.

Şəddat Cəfərov da mənəvi mühitimizin belə işıqlı simalarından biridir. Onun həyatı qaranlıqdan işığa doğru yolun sözün həqiqi mənasında təcəssümüdür. Repressiyalar, təqiblər, ağır məhrumiyyətlər onu yolundan döndərə bilməyib. Əksinə, onu işıqlı həyat naminə mübarizə aparmaq üçün gücünü səfərbər etməyə sövq edib.

Flora Xəlilzadə şərəfli ömrün mənası publisist yazısı ilə mənəvi mühitimizə özünəxas bir üslubda mesaj verir: Şəddat Cəfərov kimi insanları unutmaq olmaz. Onların həyat yolu hər bir çətinliyi asan edə bilmək örnəyidir.

Zaman ən ədalətli hakimdir.

İstiqlalımızın bir qərinəsini yola salırıq. Yeni əsrin, yeni zamanın ilk sınaqlarından Azərbaycan xalqı uğurla çıxıb. Şübhəsiz, bu uğurlarda müdriklərin də payı var. Əlbəttə, Şəddat Cəfərov kimi müdriklərin.

***Əli Rza XƏLƏFLİ***
***27.07.2021***